Soltan Hacıbəyov – 100

# Azərbaycan “Karvan”ının “sarban”ı

***❒ Bu il görkəmli Azərbaycan bəstəkarı, alim və pedaqoq Soltan Hacıbəyovun 100 illik yubileyi tamam olur. Bu yubileyin keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyev cari ilin aprel ayında sərəncam imzalamışdır. Sərəncamda deyilir ki, Soltan Hacıbəyov xalq sənəti xəzinəsindən və dünya musiqi təcrübəsindən faydalanaraq müxtəlif janrlarda özünəməxsus üslubda epik vüsəti, dərin lirizmi və dolğun məzmunu ilə səciyyələnən qiymətli əsərlər yaratmışdır. Azərbaycan simfonik musiqisinin təşəkkülü və inkişafında onun mühüm xidmətləri vardır. Geniş diapazonlu yaradıcılığa malik bəstəkar simfoniya, simfonik lövhə və süitaları, həmçinin opera və balet, dram tamaşalarına musiqi, mahnı və romansları ilə Azərbaycanın mədəniyyət xəzinəsini daha da zənginləşdirmişdir. Prezidentin sərəncamına uyğun olaraq, Mədəniyyət Nazirliyinin hazırladığı tədbirlər planının reallaşması bu gün də davam etməkdədir.***

Qeyd edək ki, milli musiqimizin inkişafı Hacıbəyovlar nəslinin istedadlı nümayəndələrinin adı ilə birbaşa bağlıdır. Üzeyir, Zülfüqar, Niyazi və nəhayət, Soltan Hacıbəyovların musiqi sənətimizə verdikləri qiymətli töhfələr xalqımızın milli-mənəvi sərvətinə çevrilmişdir.

Bu böyük bəstəkar 1919-cu ildə Azərbaycanın ulu mədəniyyət mərkəzi Şuşada anadan olmuşdur. Gələcək bəstəkarın yetişməsində, formalaşmasında xalq musiqisinin böyük təsiri olmuşdur. 1930-cu ildə S. Hacıbəyov Bakıya köçmüş, 1936-cı ildən öz əmisi Ü. Hacıbəylinin ailəsində yaşayıb, tərbiyə almışdır. Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsini bitirmiş, burada Ü.Hacıbəyov, B.İ.Zeydman və başqalarından dərs almışdır. O, 1947-ci ildə Moskva Konservatoriyasında D. Şostakoviçin sinfində təcrübə keçmişdir. S.Hacıbəyov Azərbaycan musiqi mədəniyyəti tarixinə özünəməxsus istedada malik bəstəkar, pedaqoq, ictimai xadim kimi daxil olmuşdur. Onun yaradıcılıq siması aydınlığı, dünyagörüşünün saflığı, şairanəliyi ilə fərqlənir, əsərlərində parlaq milli koloritli janr üstünlük təşkil edir.

S.Hacıbəyovun yaradıcılıq yolu 30-cu illərin axırları, 40-cı illərin əvvəllərindən başlayır. Bu dövr Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük əhəmiyyətə malik idi. Respublikada gənc, istedadlı bəstəkarların bütöv bir nəsli yetişmişdi (Q.Qarayev, F. Əmirov, Niyazi, C.Hacıyev, S. Rüstəmov...). Öz yaradıcılıqlarında onlar Ü. Hacıbəyli ənənələrini davam etdirir, eyni zamanda, S. Prokofyevin, D.Şostakoviçin dəst-xəttindən bəhrələnirdilər.



Konservatoriyada oxuduğu illərdə bəstəkar seçdiyi sənətin texnikasına daha dərindən yiyələnmək üçün müxtəlif janrlara müraciət edir. O, iki prelüd və fortepiano üçün sonata, İ. Zamanlının sözlərinə yazılmış “Çiçəklərin söhbəti”, “Neft haqqında nəğmə” mahnıları, “Quşcuğaz”, “Tənha yelkən ağarır” romansları, simli kvartet və simfonik variasiyaları (1943) yazır.

Böyük Vətən müharibəsi illərində S.Hacıbəyov qəlbi Vətən məhəbbətilə alovlanan mərd, sadə insanların qəhrəmanlığına həsr olunmuş bir sıra əsərlər bəstələyir. “Döyüşçülər nəğməsi”, 416-cı Taqanroq diviziyasına həsr edilmiş xalq çalğı alətləri orkestri üçün marş əsərləri buna misaldır.

1945-ci ildə Türkmənistan Opera və Balet Teatrı S. Hacıbəyova “Kəminə və qazı” operasını yazmağı sifariş etmişdir. Həmin əsərin simfonik parçası “Karvan” adlanır.

1955-ci ildən əsər yenidən nəşr olunaraq müstəqil şəkildə repertuarlara daxil olur. Orta Asiya mənzərəsini musiqi dili ilə canlandıran bəstəkar “Karvan”da təsviri lövhələrə meyl edir, ayrı-ayrı cizgilərlə və rəngarəng musiqi vasitələri ilə qızmar cənub təbiətini, hüdudsuz səhranın vüsətini, karvanın həzin, ahəstə hərəkətini böyük ustalıqla musiqiyə çevirir. Əsər üç hissəlidir. Bu, onun obraz dairəsi ilə əlaqədardır: karvanın gəlməsi, təbiət hadisələrinin coşması, karvanın uzaqlaşması. Əsər “Şur” muğamı üzərində bəstələnmişdir. “Karvan” simfonik lövhəsində o, musiqi vasitəsilə dinləyicilərdə konkret mənzərə haqqında təsəvvür yaradır.

“Karvan” çox cazibədardır, əsərin gözəl instrumentovkası var. Həyat eşqi ilə dolu, dərin məzmunlu bu əsəri Çikaqo şəhərində Evanston orkestri böyük məharətlə ifa etmişdir. S.Hacıbəyov 1946-cı ildə II simfoniyanı yaradır. Buradakı yeni dramatik situasiyalar, yeni ifadə vasitələri dinləyicini öz əhatə dairəsinə salır.

Bəstəkar uşaqlar üçün də əsərlər yazmışdır. Həmin əsərlərin mövzuları müxtəlifdir. Burada həm pioner həyatı (“4 pioner nəğməsi”), həm də təbiət təsvirləri (“Yeni il”, “Bahar” və s.) vardır. 1953-cü ildə bəstəkar 6 uşaq nəğməsi yazır: “Oynaq topum”, “Lay - lay”, “Bənövşə”, “Bahar gəldi”, “Yolka”, “Pioner marşı”.

“Gülşən” baletini isə 1950-ci ildə yazmışdır. Müasir mövzuya həsr olunmuş bu əsərdə insanların qarşılıqlı münasibətlərinə, əxlaqi keyfiyyətlərinə, estetik mövzulara toxunulmuşdur. Baletin 1-ci redaksiyasında (libretto Q.Almaszadənindir) bir sıra nöqsanlar var idi. Azərbaycan ədəbiyyatı və incəsənətinin Moskvada keçirilən 2-ci ongünlüyü ilə əlaqədar olaraq əsər ikinci dəfə redaktə edilir (libretto Q. Almaszadənin və P. Abolimovundur). Baletin musiqili səhnə kompozisiyası aydın və lakonikdir. Sevgi və məişət səhnələri ilə əmək mövzuları ayrılmaz vəhdətdə verilir.



1950-ci illərdə bəstəkar vokal musiqisi sahəsində də çalışıb. O, 1950-53-cü illərdə bir sıra xalq mahnı və muğamlarını xalq çalğı alətləri orkestri üçün işləmişdir. “Sarı bülbül”, “Leyla”, “Qarabağ şikəstəsi” buna misaldır.

S.Hacıbəyovun digər bir məşhur əsəri – “Simfonik orkestr üçün üvertüra”dır. Bu əsər milli musiqidə janr simfonizmi xəttini davam etdirir. Bəstəkar Azərbaycan, rus musiqi klassiklərinin ənənələrini öz fərdi yaradıcılıq süzgəcindən keçirərək müasir ruhlu, milli koloritli əsər yaratmağa nail olmuşdur. Mövzuların aydın və qabarıq şəkildə inkişaf etməsi əsərdə proqramlılıq cəhətlərini üzə çıxarır.

Əllinci illərdə bəstəkar Bolqarıstan və Çexoslovakiyaya gedir, Vətənə qayıtdıqdan sonra “Bolqar süitası” və “Çex rəqsi” əsərlərini bəstələyir.

O, ən parlaq əsərindən birini 1964-cü ildə yazmışdır. “Konsert” adlı bu əsər təzadların kəskinliyi, fəallığı, müasir musiqi dili, qeyri-adi, parlaq koloritli orkestrovkası ilə fərqlənir. Bəstəkar bu əsərini ustalıqla instrumentləşdirmiş və çalğı alətlərinin ifaçılıq imkanlarından səmərəli şəkildə istifadə etmişdir. S.Hacıbəyovun partiturasında incə, şəffaf tembr rəngləri güclü səs koloriti ilə uyğunlaşır. “Konsert” milli simfonik musiqi mədəniyyətinə gözəl hədiyyədir.

S. Hacıbəyov bir çox tamaşalara da musiqi bəstələmişdir. M. İbrahimovun “Məhəbbət”, “Kəndçi qızı”, S. Vurğunun “İnsan”, S. S. Axundovun “Eşq və intiqam”, S. Rəhmanın “Əliqulu evlənir” və bir çox başqa əsərlər bu qəbildəndir.

Soltan Hacıbəyov Azərbaycan Musiqili Komediya Teatrının dirijoru (1938-1940), “Sazçı” qızlar ansamblının rəhbəri (1940-1942), Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi (1953-1968) və SSRİ Bəstəkarlar İttifaqı İdarə Heyətinin (1958-ci ildən) üzvü olmuşdur.

Bəstəkar 1947-62-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri, sonra isə direktoru vəzifələrində, 1969-cu ildən 1974-cü ilə qədər Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsində çalışmışdır.

Soltan Hacıbəyov SSRİ Xalq artisti fəxri adına (1973), SSRİ-nin (1952) və Azərbaycan SSR-nin (1970) Dövlət mükafatlarına layiq görülmüş, “Qırmızı Əmək Bayrağı” ordeni və medallarla təltif olunmuşdur. Böyük bəstəkar 1974-cü ildə 55 yaşında vəfat etmişdir.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2019.- 9 avqust.- S.6.